## Cəmil Əkbər

### Əldən Gedər (Divani)

Gəl aldanma zəmanənin hər köklənən sazına,
Yolu versən tamahına, şöhrətin əldən gedər.
Həris olma var-dövlətin nə çoxuna, azına,
Boğanmasan sən nəfsini, qeyrətin əldən gedər.

Əvvəl-axır seyrə çıxıb, qazandığın gör nə var?
Ləli-gövhər, cəvahirat, inci, əşrəf, zər nə var,
Sən bilirsən, mən bilmirəm, əllərində hərnə var,
Düşsən elin nəzərindən, hörmətin əldən gedər.

Qılıncına bel bağlayıb tanınma cəllad kimi,
Enişlərdə, yoxuşlarda sınanma cəllad kimi,
Əvvəl-axır aqibətdə qınanma cəllad kimi,
İtirərsən sədarəti, qüdrətin əldən gedər.

Elə otur, elə durki görənlər əhsən desin,
Yaxşı becər bağlarını dərənlər əhsən desin,
Qədəm qoyub bostanına girənlər əhsən desin,
Gözləməsən ədəb-ərkan, mərfətin əldən gedər.

Elə danış, elə dinki zəhləlari tökməsin,
Qaş-qabağa düyün vurub, qamətləri bükməsin,
Şimşək kimi yalavıyıb, bulud kimi, çökməsin,
Gözləməsən abır-həya ismətin əldən gedər.

Nə bacarsan əsirgəmə, öz xalqına zəhməti,
Göstərginən hünərini, qayğıları, xidməti,
Əhdi-peyman, düz ilqarı, səadəti, hörməti,
Tər tökməsən sən bu yolda, hikmətin əldən gedər.

Elə et ki, çəkiləsən sərrafların gözündə,
Alimlərin, loğmanların, maariflərin gözündə,
Dərdbilənin, ariflərin, əhlihalın gözündə,
Dəyərini bilən olmaz, qiymətin əldən gedər.

Xidmət eylə kişi kimi, vətənində ad qazan,
Hərbir evdə istin olsun, ocaq qala, od qazan,
Ülfət eylə insanlarla, qohum-qardaş, yad qazan,
Yaşatmasan, yaratmasan, nüsrətin əldən gedər.

Öz vaxtının qədrini bil, diqqətini itirmə,
Saatını boş keçirib, saniyəni itirmə,
Böyüyünə təzim eylə, öz dayəni itirmə,
Olan-qalan məharətin, fitrətin əldən gedər.

İnsanlığa xələl vurma, ləyaqətlə gəz, dolan,
Çətinliyə sinə gərib, mətanətlə döz, dolan,
Ədalətlə rəftar edib, həqiqətlə düz, dolan,
Yalan-yanlış danışmaynan, ülfətin əldən gedər.

Çox əylənmə gəl ay *Camil*, hər yetənin yanında,
Bədəsilin, nanəcibin, xoryadların yanında,
İdeyası, əqidəsi bərbadların yanında,
İtirərsən olan, qalan söhbətin əldən gedər.